

Kompüter mühəndisi Burak Altundal dünyada minlərlə insanı öldürən 5 fəlakətdən sağ qurtulub. ANS PRESS-in məlumatına görə, avtomobil qəzası, qatara qoyulan bomba, zəlzələ, təyyarə qəzası ona zərər verməyib.

39 yaşlı Burak Altundalın həyatında bir neçə silsilə təhlükəli hallar baş verib. Belə ki, o, 5 yaşında olanda avtomobil qəzasına uğrayıb, universitet tələbəsi ikən mindiyi vaqona bomba qoyulub, əsgərlikdə ikən zəlzələ baş verib.

Ən sonuncu dəfə 2003-cü ildə 75 nəfərin həlak olduğu təyyarə qəzasından sağ çıxan Altundal bir neçə gün əvvəl də avtobus sürücüsü ilə dalaşıb. Hirslənən sürücü isə stəkanla onu boğazından yaralayıb. Sadəcə xəsarət alan komputer mühəndisi bununla beşinci dəfə Əzrailin "hədəfindən yayınıb".